Kaspi 2020.- 9 yanvar.- S.11.

# Otto Bram



**Otto Bram (Abrahamsun) 1856-cı ildə Hamburq şəhərində doğulub. Mükəmməl filoloji təhsil alan Bram 1879-cu ildən ədəbi tənqidçi və teatr tənqidçisi kimi çıxış etməyə başlayıb.**

Meyningen teatrının Berlinə qastrol səfəri bir çox teatr nümayəndələrinin, o cümlədən Bramın diqqətini cəlb edib və yeni yaradıcılıq axtarışlarına təkan verib. 1889-cu il 29 sentyabrda İbsenin "Vahimə" pyesinin tamaşası ilə "Azad səhnə" teatrı açılıb. Tamaşada əsas rolları Vyanadan Emmerix Robert (Osvald), Berlindən Mariya Şantser (Frü Alvinq), Aqnes Zorma (Regina) və Artur Krausnek (Keşiş Manders) ifa edirdi.

"Azad səhnə"də, ilk növbədə, müasir ədəbi irsə söykənən repertuar formalaşdı. Teatr senzura və kapitaldan asılı olmamaq üçün abunə sistemini tətbiq etdi. 10 nəfər təşəbbüskarlardan ibarət aktiv üzv, qalanları isə passiv üzvlər idi. 350-dən 1000-ə qədər olan passiv üzvlər hər il teatra müəyyən məbləğ ödəyirdilər ki, bu da onlara tamaşalarda iştirak hüququ verirdi. Tamaşaların nümayişi üçün Lessinq teatrı və Rezines teatrı icarəyə götürüldü. "Azad səhnə" ayda 4 dəfə tamaşa göstərirdi. Otto Bramın "Azad səhnə" teatrında İbsen, Hauptman, Zolya, Bek, Qonkur qardaşları kimi müəlliflərin əsərləri tamaşaya qoyulurdu. Bununla yanaşı, Bram müasir mövzuda yazan Avstriya və Almaniya müəlliflərinə də müraciət edirdi.

1889-cu ilin 20 oktyabrında Hauptmanın "Günəş çıxmazdan öncə" pyesi əsasında hazırlanan növbəti tamaşanın nümayiş zamanı hay-küy yaranır. Tamaşaçılar iki cəbhəyə ayrılırlar. Naturalizm tərəfdarları müəllifi alqışlayıb səhnəyə çağırır, digərləri isə qəzəblə qışqırır və kollektivi fitə basırdılar.

"Azad səhnə" 1892-ci ildə bağlanır. 1893-cü ildə isə Bram Hauptmanın "Toxucular" əsərini tamaşaya qoyur. Amma Berlinin teatr həyatında mühüm hadisəyə çevrilən tamaşanın uğuruna baxmayaraq Bram "Azad səhnə"ni bərpa edə bilmir.

Bram 1894-cü ildə Almaniyanın ən böyük teatrına-Alman teatrına (Deutch teatr) rəhbər təyin olunduqdan sonra da naturalizm mövqeyindən çıxış edirdi. O, repertuarda klassik pyesləri saxlamaqla yanaşı, müasir dramaturgiyaya da müraciət edirdi. Müasir repertuarda İbsen və Hauptmanın əsərləri üstünlük təşkil edirdi. Bram "Alman teatrı"na rəhbərlik etdiyi dövrdə İbsenin 10, Hauptmanın 14 pyesinə quruluş vermişdi. Onlardan daha uğurluları Hauptmanın "Roza Bernt" və "Toxucular", İbsenin "Oyuncaq ev" pyesləri əsasında hazırlanan tamaşalardır.

"Toxucular" tamaşası 230 dəfə oynanılmışdı. Teatr Byoronsun, Ansen Qruber və Heyermanın pyeslərinə də müraciət etmişdi. 1900-1901-ci il teatr mövsümündə Lev Tolstoyun "Zülmün hakimiyyəti" pyesinə quruluş verib. Rejissor pauzalara böyük önəm verirdi. Ancaq teatrallıqdan məhrum olduğuna görə bu səhnələr hadisələri ləngidirdi. Buna görə də dövrünün təndiqi onu "pauza rejissoru" adlandırırdı. Bram "Alman teatrı"nda güclü aktyor truppası formalaşdırmağa nail olub. Buna misal olaraq Emanuel Rayher, Aqnes Zorma, Yozej Kaynts və b. göstərmək olar. O zamanlar Maks Reynhardı da teatra Bram dəvət etmişdi. 1904-cü ildə isə o, teatrı Maks Reynharda təhvil verib Lessinq teatrına gələrək ömrünün sonuna qədər burada çalışır.

**Altay Cəfərsoy**